**Leyla Şah**

**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Prezident təqaüdçüsü**

# Adları da birdir, andları da bir

*Şeir Bakının Qobu kəndindən olan, İkinci Qarabağ döyüşlərində şəhid olmuş Qasımov Gülverdi Abil oğluna həsr olunur. Şeirdə şəhidin birinci Qarabağ müharibəsində şəhid olmuş babası Gülverdi Qasımovun da xatirəsi yad olunur. Qeyd edək ki, şəhid Gülverdi Qasımov 1992-ci ildə şəhid olmuş babasının adını daşıyırdı.*

Baba da,nəvə də indi şəhiddir,
Adları da birdir, andları da bir.
Qobuda doğulan bu oğulların,
Arzuları azad, bütöv Vətəndir.

Gülverdi,igidim,sən şəhid oldun,
Babanın yanına gedirsən indi.
Üçrəngli bayrağdır sənin kəfənin
Onun kölgəsində yatırsan indi.

Ata qoxusuna həsrətli anan,
Babanın adını qoymuşdu sənə.



O sənə bələkdə hər toxunanda,
Ata qoxusunu alırdı səndən.

Canınla, qanınla torpağı aldın,
23 yaşında məzarda yatdın.
Anan ağlamasın, ölümünlə sən,
On milyonluq xalqın balası oldun.

Gülverdi, məkanın indi cənnətdir.
Mələklər də sənə alqış deyəcək,
"Südüm halalındır"-söyləyən anan,
Aldığın torpağa Kəbəm deyəcək.

Ananın əlləri qalxacaq göyə,
Şəhid ruhlarına dua edəcək.
Əyilib öpəndə Vətən torpağın,
Sənin saçlarına sığal çəkəcək.